Güzgüyə bax, ayılanda yuxudan!
Heç söz yoxdur, sənə boydan-buxundan,
Heyif, bircə səhf eyləyib "yaradan":
Ağzın əyri, burnun pələ düşübdür.

A kişi, de, nə görübsən araqda?
İçki deyilən şey qoymadın Qazaxda.
Eşitmişəm, gözün Qarapapaqda,
Özün kimi, bir gözələ düşübdür.

Hanı, varı, bəs Mülxüsə xalanın?
Hanı xəngəl, nə tez çıxdı yalanın?!
Mən görürəm, yapıxıbdır palanın, –
Yenicə dalından, şələ düşübdür.

Çox sağ olun, itirmərəm zəhməti,
Ağköynəyin malı-mülkü, neməti,
Haqverdinin adı, sanı, hörməti
Çoxdan bəri dildən-dilə düşübdür.

Düşmən, ey dost, öz dilindir, yad deyil...
Qurtulmazsan qaçaq gəzsən lap yüz il –
Mən yeməmiş əl çəkmərəm onu bil –
Gözüm sizdə bir xəngələ düşübdür.

Qazax, 4 noyabr, 1950

Qocalıq

QOCALIQDA

İtirdiyi illər düşür yadına,
Qoca hesablayır təsbehlə bir-bir.
Ömrün qiymətini, günün qədrini
İnsan qocaldıqca daha çox bilir.

1976

QOCALIĞIN QAZANCI

Səadətdir cavanlıq, çalışın, qocalmayın
Ağsaqqalın güdməyin qazancını, nəfini.
Bircə o yaxşıdır ki, qocanı görən kimi,
Cavanlar yol verirlər, soruşurlar kefini.

1976

KÖÇÜB GEDİBDİR

Köhnə oylağımı gəzirəm, ancaq
Axşamdır, hər yana qaranlıq çökür.
Dayanıb baxıram, çayqarışana –
Axıb qıjıltıyla gedir Xram, Kür.

Ey ağıllı Xram, ey dəlisov Kür,
Siz düz deyirsiniz mənə deyin bir,
Neçə milyon canlı burda ömr edib,
Sizin suyunuzdan içib gedibdir.

Ömrünüz bağlıdır keçmiş illərə,
Şəfa gətirdiniz bizim ellərə.
Deyin, kimlər gəlib bu sahillərə,
Kimlər bu yerlərdən köçüb gedibdir.

İLLƏR

Köhnə il düşür yola
Əziz dostlar, buyurun
Yeyin, nuş can olsun
Yeni ilin aşını.

Hər gün bilir ömrünü,
Hər ay bilir yaşını.
Yola salır hörmətlə,
Hər il öz sirdaşını.

Köhnələcək bu il də,
Yeni bir il gələcək.
O da həmən bu ilin,
"Sən köhnəlibsən", - deyə
Atacaqdır daşını.

Heç kəs deyil əbədi –
Köçüb gedir adamlar.
Ev qalır, oymaq qalır,
Ömürdən gedir – deyə.
Bizə də bu günləri,
Sonralar saymaq qalır.

1979

HƏR SƏHƏR-AXŞAM

Tanıya bilmirəm dostu, tanışı
Xəyalım qarışıb, huşum gedibdir.
Görüm qocalığın ağ olsun üzü,
O mənim üzümü qara edibdir.

Yanına çox gedib-gəldim təbibin,
Dərman-davasından mən "halı" oldum.
Bir fayda görmədim dərmanlarından,
Gəzib başqa həkim tapmalı oldum.

Qocalıq başımın alıb üstünü,
Onunla əl-yaxa çarpışam gərək.
Həkimim Xəzərlə gedib sahilə,
Görüşəm hər səhər, hər axşam gərək.

1980

AY ELLƏR DEDİM

Ömür dəftərimi varaqlayaraq,
Enişli, yoxuşlu yollara baxdım.
Yox, yarı mənzildə qoymayıb məni,
Vəfalı iqbalım, vəfalı baxtım.

Uşaqlıq illəri, cavanlıq çağım,
Keçdi gözlərimin önündən bu gün.
Məndən bircə kəlmə soruşmadı yox,
Keçdi illər, aylar, keçdi ömür, gün.

Harada gizləndi, görünmür, hanı –
Dodağı nəğməli gəncliyim vardı?!
Qayğısız illəri xatırladıqca
Dərin bir ah çəkdim, gözüm yaşardı.

Dərələr keçmişəm, dağlar aşmışam,
Mən sizdən nə yaman uzaqlaşmışam.
Ay illər, ay illər, ay illər! – dedim.
İzi var sinəmdə hər ilin, ayın,
Darıxdım, siz məni yalqız qoymayın,
Ay ellər, ay ellər, ay ellər! – dedim.

1976

YOXLAYIN

Bu il yay necə keçdi, –
Bilmək istəsəniz siz
Bağda narı yoxlayın.

Zirvələrə baxın bir,
Görün dağın başında
Varmı, qarı yoxlayın.
Hörmət edin, cavanlar,
Köçməyə hazırlaşan
Qocaları yoxlayın.

1978

YETMİŞ İL

Verir öz hökmünü keçdikcə zaman,
İllərlə üz-üzə durmuşam yaman.
Heç qış da bilmədi, keçdi yetmiş il,
Bahar da bilmədi, keçdi yetmiş il
Qara saçlarımı, çox əlləşdi, çox
Ağarda bilmədi, keçdi yetmiş il.

1975

DÜŞÜR YADIMA

– Qocalıqdan danışdın,
Qocalardan danışdın.
Lazım deyil bunları
Heç gətirmə yadıma.

Dözüm gərəkdir, dözüm!
Əgər qocalsan belə.
Gərək bildirməyəsən
Onu qıza, qadına.

– Düzdür əzizim, gözüm,
Sözündə bir məna var.
Kədərlənmək yaraşmaz
Şöhrətimə, adıma.
Nə etməli, mən özüm
Qocaldıqca, qocalar
Gəlir düşür yadıma.

1976

QOCALIQDIR

Başım tez-tez hərləndikcə
Məni çox narahat edir,
Bir gün gedib təbiblərdən
Soruşdum səbəbi nədir?

Yaxa qurtarmaq xəstədən
Özü böyük ustalıqdır...
"Səbəb" nədir? – həkim dostum
Qıyıb demir qocalıqdır...

1976

BOZ ÖKÜZ

Çox gəzib, çox görüb kəndli qardaşım,
Yaşıl təpələri, boz düzləri o.
Bir zoğal çubuğu əlində yenə,
Qabaqlayıb gedir öküzləri o.

Çökdü dizi üstə yüklü boz öküz,
Lakin bəhanədir ona yük, alıq...
O bütün ömrünü işləmiş, indi
Qocalıqdır dərdi, onun, qocalıq!

1976

BATMAN VƏ MİSQAL

Özüdür həkimi insanın, inan,
Qulaq as, özünə, dostum, hər zaman.
Gözləsən təmizlik, səliqə-sahman –
Qoymaz bir xəstəlik keçsin yanından.

Xalqındır yurdunda olan gözəllik,
O deyib, onundur, bu hikmət, bilik:
"Gələndə batmanla gəlir xəstəlik,
Çıxanda misqalla çıxır canından!"

1976

HƏŞTADDANDIR

Xəstə gəlib çıxdı xəstəxanaya,
Həkimə söylədi dərdini bir-bir,
Məlul-məhzun baxıb umdu həkimdən,
Faydalı bir əlac, xeyirli tədbir...

Xəstə dedi: həkim, başım dağılır,
Tez bir çarə qılın, mənə, amandır!
Xəstənin yüz ona çatıbdır yaşı,
Həkim söylədi ki, bu həştaddandır!

1975

TƏKLİK

Övladlarıma

Hərəniz bir yana çıxıb getdiniz,
Üstümə töküldü mənim qəm, kədər.
Yəqin dediniz ki, o yorulubdur
Qafiyə axtarmaz, başı dincələr.

Qayıdıb gördünüz, halım hal deyil,
Tökülüb üstümə bütün dərd, ələm.
Nişanəm qalmayıb, qəddim əyilib,
Elə bil ki, heç mən, o mən deyiləm.

O çalıb-çağıran, o deyib gülən,
Atanız gördünüz necə fağırdır.
Bircə gün yanımda siz olmadınız,
Təklik onda bildim necə ağırdır.

1978

SÖHBƏT

– Başında qalmayıb, çıxıbdır ağlın
Üstünə bir dəli külək əsəndən...
– Ağılsız ağlımla, kəm kamalımla
Yenə də qananam, bilənəm səndən...

1976

TƏSƏLLİ

Uşaqlarımın anasına

Neçə qəmli misra yazdım, bitirdim
Keçdikcə yanımdan karvanlar, köçlər.
Neçə dost itirdim, tanış itirdim –
Hesabı varmı ki, deyim nə qədər?

Bir tutar qoymadı qovğalar məndə,
Yüz yol parçalandım, min yol didildim.
Özümün özümdən zəhləm gedəndə,
Bir səni özümə təsəlli bildim.

Barı camalına baxım doyunca,
Azar incidəndə, dərd incidəndə.
Bəbəklərimdə qoy, qalsın, şəklini
Bir gün mən dünyadan köçüb gedəndə...

1977

BİR SƏBƏB AXTARIRAM

Bu gün dərdli, kədərli,
Bu gün üsyankaram çox.
Saxlamağa hirsimi
Əlimdə bir əlac yox.
Keçib dəli çaylardan,
dərələri dağıdır,
daşlı dağlar yarıram.
Mən elə dolmuşam ki,
Hönkürüb ağlamağa
bir səbəb axtarıram

1976

İŞIQ

Bu yerin, bu yurdun övladıyam mən,
Göylər də gözümdən qaçmayır, ancaq.
Pis deyil, xəyalın qanadlarında,
Səmalar, fəzalar seyrinə çıxmaq.

Öz yeri, öz adı, öz şöhrəti var
Göylərdə ayın da, ulduzların da.
Vaxt olub, çəkmişəm və çəkilmişəm,
Səmanın tərəzi ulduzlarında...

Seyrinə dalmışam kəhkəşanların,
Buludsuz gecələr dağda, aranda.
Həmsöhbət olmuşam karvanqıranla,
Gecələr çöllərdə mal otaranda.

Qızaran üfüqdə səhərə qalmış,
Ayın, dan ulduzu öz sirğasıdır.
Elə parlaq idi bir zaman onlar,
Deyərdin hər ulduz ay parçasıdır.

Niyə alışmayır, niyə yanmayır,
Hanı mən gördüyüm o şəfəq, o nur?
Tutqun gözlərində indi onların,
Qəriblik, ayrılıq, hicran oxunur.

Nə olub, a dostlar, belə sönükdür
Yadlarmı qarğıyıb, yoxsa yarımmı?
Mənimmi gözümün sönür işığı,
Yoxsa mənə baxan ulduzlarınmı?

1975

DEDİN

Şair, yenə ağı qaraya qatdın,
Yeyib yatanları vaxtsız oyatdın.
"Kimə qismət oldun, kimi yaşatdın".
A mənim çörəyim, çörəyim, dedin.

Qışları qışlaqdır, yayları yaylaq,
Qızıldır gəzdiyim bizim o torpaq.
"Sən dağa arxalan, arxalıdır dağ"
A mənim kürəyim, kürəyim, dedin.

Hər üzə gülənə etmə etibar,
Hələ gizli qalan düşmənlər də var.
"Səni neçə dəfə nişan aldılar",
A mənim ürəyim, ürəyim, dedin!

1975

BİLMİRƏM

Doğma obaları bir-bir gəzmişəm,
Ən uzaq səfərdə yola dözmüşəm.
Üzəndə Xramda, Kürdə üzmüşəm,
Göldə gölməçədə üzə, bilmirəm.

Dedilər bu necə ərkandı, yoldu,
Nə saçın ağardı, nə rəngin soldu?
Saçlarım başımın qaxıncı oldu,
Məni kim gətirdi gözə, bilmirəm.

Daha, üfüqlərdə qaralır axşam,
Sönük şölə verir oridikcə şam.
Gecələr dumanlı dağlar aşmışam,
İndi bu düzlərdə gəzə, bilmirəm.

Yüklənir barxanam, sürülür köçüm,
Madam köçməliyəm, niyə gec köçüm?..
Bir qurşun dağıdır, çatmayır gücüm,
Başımı yastıqdan üzə bilmirəm.

Daşıdım qəlbimdə əsrin yükünü,
Qocalıq başımın aldı üstünü.
Görünür gözümə ömrün son günü –
Qəhr edir, bu dərdə dözə bilmirəm.

1975

QOCA OXUYURDU

Mən "hay-hay" deyirdim qürurla müdam,
İndi səhər-axşam "vay-vay" deyirəm.
Ümidim kəsilib "hay"dan "haraydan",
Yalnız təbiətdən umuram kərəm...

Köçüb atam, anam, bacım, qardaşım,
Həştadı keçirdim, az deyil, yaşım,
Düşür, bədənimdə dayanmır başım,
Bolkə də üç günüm, üç ayım qalıb –
Gedibdir "hay-hayım", "vay-vayım" qalıb.

Etiraf et, – dedi, – həqiqət dindi, –
Basıb-bağlamaqdan nə çıxar indi
Baxıram, köçmüşlər... daha yanımda
Nə həmyaşın qalıb, nə tayın qalıb,
Gedibdir "hay-hayın", "vay-vayın" qalıb.

1977

QALMAYIR

Çətinliklə qaldırıram,
Sanki ağırlaşıb başım.
Güman çoxalıb yadlarım,
Azalıb gedir yaddaşım.

Ərşə çəkilir gecələr,
Gözümdə yuxu qalmayır.
Düşündüyüm fikirlərin,
Səhərə çoxu qalmayır.

1979

BAXMAYIR İNDİ

Öz gənclik şəklinə diqqətlə baxdı,
Köksünü ötürdü qoca dərindən.
Nələr xatırladı, nələr oxudu
Ömür dəftərindən, gün dəftərindən.

"Ocaq dağı" kimi bir dağ harda var?
Yadıma düşəndə könlüm qan ağlar.
Ayağımı yumur köpüklü çaylar,
Başımda şimşəklər çaxmayır indi.

Çaxnaşır gözümdə qara dumanlar,
Deyinir, dilində ahlar, amanlar.
Mənə qaş-göz edən canlar, cananlar,
Gözünün ucuyla baxmayır indi.

Görün hardan əsdi qara yel, külək
Necə oldu canan, hanı o mələk?!
Odlu gözlərindən çaxardı şimşək,
Hanı o şimşəklər çaxmayır indi?

Yanardı odlara cismim əzəllər,
Ürəyim soyudu, getdikcə illər.
Dəstə-dəstə gəzən, türfə gözəllər
Canımı yandırıb, yaxmayır indi.

Deyir – qocalmısan, yoxdur tutarın
Dadı-duzu yoxmuş sanki növbarın.
Əllərim quruyub, tanış qızların –
Döşünə gül-çiçək taxmayır, indi.

Deyir sözlərini qalxa-yıxıla.
Gedir dar cığırlar gəlmir düz yola.
Mən sağa çəkirəm, o çəkir sola,
Ayağım sözümə baxmayır indi.

1978

QALMAYIB

İstədim nizam olsun
Düzəltirdim dişimi,
Həkim bacı daha da
Lap korladı işimi.
Dedi: çəkilməlidir,
Gərək bunlar çəkilsin.
Dedi: çəkilməlidir,
Gərək onlar çəkilsin.
Burda biri qalıbdır,
Qoy onu da çəkim mən.
Orda biri qalıbdır,
Qoy onu da çəkim mən.
Neçə dişim var idi,
Çəkib atdı çənəmdən.
Diri qaldımsa, ancaq
Yaman günə düşdüm mən.
– Dur gedək ay xanım,
Dedim – dur gedək,
Mənim heç həkimlik
işim qalmayıb.
Olan dişlərimi
Qoparıb tamam,
Ağzımda bir dənə
dişim qalmayıb –
Daha heç həkimlik
işim qalmayıb.

1982

QOCALANDA BİLƏRSƏN

(Qoca öz nəvəsinə)

Boy atırsan balacan,
Kim şad olmaz, de buna.
Baxıb sevinir baban.
Böyü, boya-başa çat!
Çalışırlar cavanlar,
Sabah sən də qur-yarat!

Əziz bala, ancaq bil
Yaşın çoxluğu deyil,
İnsanları sevdirən --
Böyük işdir, əməkdir.

Heç qocalıq istəmə,
Saqqalım olsun demə,
Qocalanda bilərsən
– Uşaqlıq nə deməkdir.

Yaşamaq eşqi

YAŞAMAQ İSTƏR

Yenə tərlan könlum pərvaz eyləyir,
Dövr edib, qonmağa bir budaq istər.
O bəzən vurular göy çəmənlərə,
Bəzən də pünhani bir otaq istər...

Mən qana bilmədim qəlbimi, düzü,
Düzdə eniş dilər, enişdə düzü,
Dağlarda hər zaman arandır sözü,
Aranda qaldımı, qarlı dağ istər.

Yağışda-yağmurda, qarda, boranda
Od, alov eşqilə yanır bir anda...
Yayın isti çağı bürkü vuranda,
Yanları yarpızlı bir bulaq istər.

Bəzən başdan aşır, dərdim, mələlım
Bozən bulaq kimi durulur halım.
Bir mələk eşqiylə şair xəyalım,
Bu dünya durduqca yaşamaq istər!..

YAŞAMAQ EŞQİ

Torpaq dedim, insan dedim,
Hər cümlənin başında mən.
Hey daşıdım bu dostları
Öz qəlbimdə, başımda mən...

Zaman-zaman səfər etdim,
Gah yaxına, gah uzağa;

Göyə çıxdım, aya çıxdım,
Yenə döndüm bu torpağa.

Torpaq dedim, insan dedim
Mən qələmə əl atanda,
Çünki duydum qüdrətimi
Bu torpaqda, bir insanda...

Gün diləyə darlıq edir,
Əziz tutun ömrü barı!
Çünki bizim insanların,
Çox böyükdür arzuları...

Əməyimiz bəhrə verər,
Zəhmətimiz getməz hədər...
Torpaq üçün, insan üçün
Dəyərimiz varsa əgər.

Təbiətdən, cəmiyyətdən
Bir balaca xahişim var:
ömrü, günü uzatsınlar!
Əlbir olub onlar məni,
Altmış il yaşatmışlar.
Əlli il də yaşatsınlar!

Bakı, 1965

BAŞLADI

Oylağımda boran qopdu bir zaman,
Dağ başını qar almağa başladı.
Qanadından yaralandı laçınım,
Turacımı sar almağa başladı.

Qapımızı döydü qara bir külək,
Bağçamızda nə gül qoydu, nə çiçək;
Payız fəsli şaxta vurmuş xəzəl tək,
İrzi-rəngim saralmağa başladı.